


# Müdrikləşən sevgi



Fərruxə
UMAROVA

Yazıçı Qərib Mehdinin "Pəncərədən gələn qonaq" kitabı onun oxucularla 42-ci görüşüdür. Kitabda povest və hekayələrlə yanaşı, esselər və tərcümə də yer alıb. Müxtəlif həcmli və müxtəlif mövzuları əhatə edən bu əsərlərdən birini - "Sevgi" povestini xüsusi qeyd etmək istəyirəm. Bunun səbəbi müəllifin sırf bu mövzunu real boyalarla həyatiləşdirməsidir.

Q.Mehdinin "Sevgi"si isə yüksək və ali hisslərin tərənnümü olmaqla yanaşı, oxucuya paklıq və saflıq təlqin edir. Eyni zamanda tərbiyəvi, əxlaqi dəyərləri özündə ehtiva edən "Sevgi"nin süjet xətti çox maraqlı və həyəcanvericidir. Əsərin qəhrəmanı yaşı qırxı haqlamış Famil bəy iş yerinə yenicə gəlmiş, özündən 15-16 yaş kiçik gənc bir qadına - Fərəh xanıma ilk baxışdan vurulur. Uşaqlığında özündən xeyli böyük bir xanımı - müəlliməsini sevən Famil bəyin sevgi quşu bu dəfə də əlçatmaz bir zirvəyə, uyğun olmayan bir məkana qonur. Sevgi ağıla qulaq asan, söz eşidəndirmi? Elə olsaydı, illər öncə nişanlı müəlliməsini, illər sonra ailəli iş yoldaşını sevərdimi? Əslində, real həyat həqiqətlərinə söykənən bu hadisədə qeyri-adi, möcüzəli heç nə yoxdur. Hadisənin qeyri-adiliyi və ecazı onun necə təqdim edilməsindədir. Müəllif hər kəsin başına gələ biləcək və bəlkə də, başına gəlmiş bu hadisəni şirin və fəlsəfi bir dillə, təmkinli bir ləngərlə diqtə edir. Bu nəqletmə zamanı heç nəyi gözdən qaçırmır.

Əsərin baş qəhrəmanı Famil bəy olsa da, ikinci qəhrəman olan Fərəh xanım heç də ondan geri qalmır, əksinə, bəzi məqamlarda onu fikrən öz arxasınca çəkib aparır, yolunu "azmağa", sağa-sola sapmağa imkan vermir. Bütün bunlar Q.Mehdinin qadına olan hörmət və ehtiramından qaynaqlanır. Qərib Mehdinin qadın obrazı olan Fərəh xanım qarşı tərəfi (əslində bütün ətrafını) sözün həqiqi mənasında həm də tərbiyələndirir. Dərin ağlı və zəkası sayəsində "yanlışlıqla" onu sevən kişiyə (Familin yanlışlığı evli qadını sevməsində idi) öz yerini ustalıqla göstərir və sonda qəhrəmanın düzgün qərar qəbul etməsinə nail olur.

Fərəh xanım həm də anadır. Azyaşlı oğlu Şərifin anası. Övladına qarşı olan tələbkarlığı, təlim-tərbiyə üsulu onun düzgün yolda olmasından xəbər verir. Belə bir qadın səhv edə bilməz. Onun səhvi övladına pis nümunə olmaqdan başqa, həm də oğlunun da həyatını alt-üst etməsi, mizan-tərəzisini pozması demək olardı.

Əsərin qəhrəmanı Famil bəy bu sevgi odunda nə qədər qovrulsa da, canı yansa da, daxili zəngin-liyini, ucuz şəhvətdən uzaq olan sevgisinin necə ali bir duyğu olduğunu isbatlamağa özündə mənəvi güc tapır.

Müəllifin burada dörd müqəddəs səma kitabından söz açdığı məlumdur. Bu, həm də Q.Mehdinin dinə olan bağlılığından və şəriət qaydalarına olan hörmətindən xəbər verir. Digər tərəfdən ailə bağlarının, ailə münasibətlərinin bütün din və şəriət qaydalarından daha üstün olduğunu, ən əsası isə insanın mənəviyyatını idarə edən vicdan adlı ali hakimin varlığını bir daha yada salır.

Lakin həqiqətən də ümid sonda ölür! Son bir kəz daha bir cəhd; Famil bəy vurğunu olduğu Fərəh xanımın ad gününü təbrik etmək üçün sevimli bağçasının güllərini dərəndə əli yaralanır, qana boyanır. Əsərə qəhrəmanın gül bağçasının təsviri ilə başlayan, "Famil bəyin gül bağı görənləri valeh edirdi. Onun ilboyu çiçəkləyən gülləri həm bihuşedici ətir saçır, həm də sevdalı ürək kimi danışırdı", - deyən müəllif sonda sanki bu bağı "unudur". Ədəbi qəhrəmanın bu qədər dəyər verdiyi, "sevdalı ürək kimi danışan" bir bağı çarəsiz halda tərk etməsini nədənsə bir ananın öz balasını atıb getməsinə bənzətdim. Bəlkə də, ömrü boyu sevgilərinə qovuşmaq şansından məhrum olan qəhrəmanın mənəvi üsyanı, etiraz jestidir onu sevən və onun sevdiyi bir bağı başlı-başına buraxıb getməsi?!